Xalq qəzeti.- 2022.- 9 oktyabr.- S. 7

# Azərbaycan Xalq Cümhuriyyətinin mətbu yadigarının IV cildi də işıq üzü gördü

**Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi mətbu tribunası olmuş "Azərbaycan" qəzetinin külliyyatının ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə hazırlanan IV cildi də bugünlərdə nəşr edilərək oxucuların istifadəsinə verilib. Bu cild qəzetin 1919-cu ilin yanvarında işıq üzü görmüş 76–102-ci nömrələrini əhatə edir.**




Milli mətbuat tariximizdə ilk rəsmi dövlət qəzeti kimi layiqli yer tutan "Azərbaycan" qəzeti Xalq Cümhuriyyəti tarixinin və 1918–1920-ci illərin önəmli hadisələrinin öyrənilməsində ən mötəbər mənbələrdən biridir. Təəssüf ki, Azərbaycanda sovet hakimiyyəti dövründə bu qiymətli jurnalistika və milli məfkurə irsi arxiv və kitabxanalarda "arzuolunmaz mənbələr" sırsına daxil edilərək geniş istifadədən kənarda saxlanılmışdır. ADA Universiteti bizim günlərdə "Azərbaycan" qəzetindən istifadə edilməsi ilə bağlı zəruri ehtiyacı cavablandıraraq onun toplusunu ardıcıl cildlər şəklində geniş oxucu dairəsinə çatdırır.

"Azərbaycan" qəzetinin növbəti IV cildinin əhatə edildiyi materialları media üçün ətraflı şərh edən filoloq, tərcüməçi Azad Ağaoğlu bildirib ki, yeni cildin də diqqətçəkənliyi dövrün ümumi mənzərəsini əks etdirməsidir: "İlk rəsmi qəzetimizin tarixi baxımdan önəmli, bu gün üçün maraqlı materialları da kifayət qədər çoxdur. Tarixi "Azərbaycan" qəzeti külliyyatının hər növbəti cildi daha dolğun və məzmunlu materialları ilə seçilir. Qəzetin müəllif heyətinin də davamlı olaraq yeni imzalarla zənginləşdiyini görürük."

Milli mətbuat tariximizdə və tarixi qaynaqlar şəbəkəsində xüsusi yeri olan "Azərbaycan" qəzetinin külliyyatının çağdaş nəsillərə çatdırılması ADA Universitetinin xalqımıza və dövlətçiliyimizə, milli jurnalistika tariximizə, bütövlükdə, milli-mənəvi irsimizin öyrənilməsinə verdiyi dəyərli töhfələrdən biridir.

**T.RÜSTƏMOV, "Xalq qəzeti"**